1_Layout 1 29.10.2025 17:53 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 20 (708)

31 oktyabr 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## AZƏRBAYCAN-QAZAXISTAN: ORTA DƏHLİZDƏN KEÇƏN ORTAQ MARAQLAR

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Azərbaycan-Qazaxıstan: Orta dəhlizdən keçən ortaq maraqlar" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Azərbaycan bu gün dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasındadır. Bu inkişafın əsasında müstəqil daxili və xarici siyasət kursu dayanır. Belə bir strateji kursun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi hazırkı milli inkişafın əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi, sosial-siyasi, iqtisadi, humanitar yönümlü islahatların həyata keçirilməsi, beynəlxalq münasibətlər sistemində artan nüfuzumuz qlobal məsələlərdə ölkəmizin böyük təsir gücünə malik olduğunu göstərir. Əlbəttə ki, bütün bu nailiyyətlərin əsasında güclü lider fenomeni dayanır.

Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri iki qardaş ölkə arasında münasibətlərin yeni mərhələsinin əsasını qoydu. Bunun dövlət səfəri mahiyyəti daşıması, Azərbaycan Prezidentini Hava Limanında şəxsən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin qarşılaması və yola salması, ölkə rəhbərimizi hökumət üzvlərindən ibarət böyük bir qrupun müşayiət etməsi hər iki tərəfin bu səfərə nə qədər önəm verdiyini göstərirdi.

Bu səfər Azərbaycan və Qazaxıstan arasında yalnız ikitərəfli əməkdaşlığın növbəti mərhələsi deyil, həm də türk dünyasının iqtisadi, texnoloji və humanitar inteqrasiyası baxımından strateji hadisə kimi qiymətləndirilməlidir. Təsadüfi deyil ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bu dövlət səfərini ölkələrimiz arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolunda çox mühüm hadisə və addım kimi qiymətləndirdi, Prezident İlham Əliyevin müasir dövrün görkəmli dövlət xadimi olduğunu vurğuladı.



Səfərin proqramı da kifayət qədər çoxşaxəli idi - Trans-Xəzər Orta dəhlizi layihəsinin təqdimatından tutmuş Ali Dövlətlərarası Şuranın iclasına, strateji sənədlərin imzalanmasından və Alem.ai Süni İntellekt Mərkəzinə səfərə qədər. Hər bir mərhələ həm regional, həm də qlobal miqyasda ciddi mesajlar vermiş oldu.

### Orta dəhliz - Avrasiya məkanında yeni ticarət arteriyası

Öncə qeyd edək ki, Azərbaycan Qazaxıstanın mühüm etibarlı strateji tərəfdaşıdır. Ölkələrimiz ümumi köklərə, zəngin mənəvi-mədəni irsə və tarixə malikdir, münasibətlərimiz hər zaman olduğu kimi, bu gün də sabit inkişaf edir. Əsas məqsəd xalqlarımız arasında dostluğun gələcəkdə də hərtərəfli möhkəmlənməsi və müxtəlif sahələrdə əməkdaşlığa yeni təkan verilməsidir. Bu, iki ölkənin köklü maraqlarına uyğundur.

Səfərin ilk günü - oktyabrın 21-də Astanada Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayevin iştirakı ilə "Orta dəhlizin inkişafı" layihəsinin təqdimatı keçirildi. Bildirildi ki, Orta dəhliz Çindən Avropaya ən qısa, təhlükəsiz və səmərəli marşrut olmaqla Avrasiyanın iqtisadi xəritəsini yenidən formalaşdırır. Bu dəhliz Rusiyadan və İran üzərindən keçən alternativ yollara nisbətən sabit və çevik tranzit xətti kimi önə çıxır. Marşrut Çin-Qazaxıstan-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa istiqamətində uzanır və Yeni İpək yolunun mərkəzi arteriyası sayılır. Malların Çindən Avropaya dəniz yolu ilə çatdırılması 35-45 gün çəkirsə, Orta dəhlizlə bu müddət 12-15 günə enir.

Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Limanı və Bakı Beynəlxalq Dəmir Yolu Vağzalı kimi müasir infrastruktur bu marşrutun əsas dayaqlarıdır. Layihə Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkiyə arasında vahid logistika və gömrük sisteminin formalaşmasına, rəqəmsal gömrük, "yaşıl dəhliz" və "bir pəncərə" prinsiplərinin tətbiqinə şərait yaradır. Ukrayna müharibəsi və Qara dənizdə artan risklər fonunda Orta dəhliz bu gün Avrasiya ticarətinin ən etibarlı xətti kimi dəyərləndirilir. Prezident İlham Əliyev də Orta dəhlizlə bağlı çıxışlarında dəfələrlə qeyd edib ki, Azərbaycanın rolu sadəcə tranzit ölkə olmaqla məhdudlaşmır - Bakı artıq bölgənin logistik, enerji və rəqəmsal mərkəzinə çevrilib.

Bu layihə təkcə Çin və Orta Asiya ölkələrini Avropa ilə birləşdirən logistika marşrutu deyil, yeni geoiqtisadi reallığın əsas komponentidir.

### Strateji tərəfdaşlıqdan müttəfiqliyə

Astanada keçirilən Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şurasının ikinci iclası da dövlət səfərinin siyasi baxımdan son dərəcə vacib məqamlarından oldu. Prezident Kasım-Jomart Tokayev və Prezident İlham Əliyev çıxışlarında dərin tarixi köklərə, ortaq dəyərlərə və qarşılıqlı etimada əsaslanan qardaşlıq münasibətlərini xüsusi vurğuladılar.

Kasım-Jomart Tokayev Azərbaycanı "Qazaxıstan üçün xüsusi ölkə, qardaş dövlət" adlandırdı və qeyd etdi ki, iki xalqı birləşdirən bağlar təkcə tarixi deyil, həm də müasir geosiyasi və iqtisadi maraqların kəsişməsində formalaşan strateji birliyə əsaslanır. O, Azərbaycan Prezidentinin "müdrik və uzaqgörən liderliyinin" regionda sülh və sabitliyə töhfə verdiyini xüsusi qeyd etdi. Ümumən Qazaxıstan Prezidentinin Azərbaycanın dövlət başçısına görüş zamanı da, mətbuat konfransında da bir neçə dəfə "görkəmli lider" deyə müraciət etməsi qlobal dünyada İlham Əliyev şəxsiyyətinə olan münasibətin göstəricisi kimi xüsusi diqqət çəkirdi.

Prezident İlham Əliyev isə cavab çıxışında Qazaxıstanın daim Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək göstərdiyini vurğuladı. Dövlət başçısı bildirdi ki, "bu gün Azərbaycan ilə Ermənistan arasında sülh dövrü başlayır və regionda yeni inkişaf mərhələsi formalaşır". Dövlətimizin başçısı İlham Əliyevin sözlərinə görə, Zəngəzur dəhlizinin (TRIPP) açılması və Orta dəhlizin inkişafı bütövlükdə Avrasiya məkanında yeni iqtisadi dinamikaya yol açacaq.

### İmzalanan sənədlər - əməkdaşlığın hüquqi dayaqları

Səfər zamanı Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə bir sıra mühüm sənədlərin imzalanması iki ölkə arasında strateji tərəfdaşlığın çoxşaxəli hüquqi bazasını daha da möhkəmləndirdi.

Tərəflər "Strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilənin 20 illiyi" münasibətilə Birgə Bəyanat qəbul etdilər və Ali Dövlətlərarası Şuranın iki mühüm qərarını imzaladılar. Bundan əlavə, energetika, sənaye mülkiyyəti, rəqabət siyasəti, səhiyyə, statistika, hüquq-mühafizə, rəqəmsal transformasiya və süni intellekt sahələrini əhatə edən çoxsaylı sənəd imzalanaraq mübadilə olundu. Xüsusilə "Energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" və "Süni intellekt sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" gələcək onilliklər üçün əməkdaşlığın istiqamətlərini müəyyənləşdirir.

Bu sənədlər yalnız ikitərəfli razılaşmalar deyil, həm də regionda türk dövlətlərinin iqtisadi və texnoloji inteqrasiyasının real mexanizmlərini formalaşdırır.

### Gələcəyin texnoloji əməkdaşlığı

Səfər proqramı çərçivəsində Prezident İlham Əliyevlə Prezident Kasım-Jomart Tokayev Alem.ai Beynəlxalq Süni İntellekt Mərkəzinə də baş çəkdilər. Bu mərkəz Qazaxıstanda innovasiyaların və süni intellekt texnologiyalarının inkişafı məqsədilə yaradılıb. Burada təkcə elmi-tədqiqat laboratoriyaları deyil, həm də gənc istedadları yetişdirən "Tomorrow School" və startapların dəstəklənməsi üçün xüsusi kampus fəaliyyət göstərir.

Mərkəzin məqsədi hər il yüzlərlə gənci bu sahəyə cəlb etmək, 100 yeni süni intellekt startapının yaranmasını təmin etmək və texnoloji sahibkarlıq ekosistemini gücləndirməkdir.

Prezident İlham Əliyevin Qazaxıstana dövlət səfəri göstərdi ki, Azərbaycan-Qazaxıstan münasibətləri artıq sadəcə dostluq və qardaşlıq mərhələsində deyil, möhkəm strateji müttəfiqlik səviyyəsinə yüksəlib.

Bu səfər həm də bir daha nümayiş etdirdi ki, Azərbaycan liderinin xarici siyasət fəlsəfəsində əsas prioritetlərdən biri qitələrarası əməkdaşlıqda türk dövlətlərinin rolunu artırmaq, Xəzərdən Avropaya uzanan sabitlik və inkişaf körpüsü yaratmaqdır.

## Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

Oktyabrın 17-də Daxili İşlər Nazirliyində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin vəziyyətinə", "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı sahəsində görülən işlərə", habelə cari ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından xüsusi əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində böyük bir iş həcmi yerinə yetirilib. Respublikanın 55 şəhər və rayonundan olan 6.279 vətəndaş qəbul edilərək əksəriyyətinin müraciəti yerində həll olunub, həmçinin 80.834 müraciətə baxılaraq təşəbbüskarlara hüquqları izah edilməklə yazılı cavablar verilib.

Cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər də bütövlükdə qənaətbəxş olub, əvvəlki dövrlərin



müsbət təmayülləri daha da inkişaf etdirilib.

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 92,4 faizi açılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin sayı 6,9 faiz, o cümlədən qəsdən adam öldürmələr, qəsdən sağlamlığa ağır zərər vurmalar, oğurluqlar, dələduzluqlar, soyğunçuluqlar, quldurluqlar, hədə-qorxu ilə tələb etmələr, xuliqanlıqlar, informasiya texnologiyalarından istifadə edilməklə, odlu silahın tətbiqi ilə və əvvəllər məhkum olunmuşlar tərəfindən törədilən, ailə münaqişəsi zəminli və qrup halında cinayətlərin sayı azalıb. Qeyri-aşkar şəraitdə baş verən, eləcə də ağır və xüsusilə ağır cinayətlərin, şəxsiyyət əleyhinə olanların, onlardan qəsdən adam öldürmə və ona cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların, dələduzluqların, soyğunçuluqların, quldurluqların, hədə-qorxu ilə tələb etmələrin və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb.

Keçmiş illərdən bağlı qalmış 284 cinayətin açılması təmin edilib. Axtarışa elan edilmiş şəxslərin 85,1 faizi tutulub, itkin düşmüş şəxslərin 90%-i, habelə mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə axtarılan 22.268 borclu şəxs tapılaraq aidiyyəti üzrə təhvil verilib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 408 nəfərdən ibarət 152 cinayətkar qrup zərərsizləşdirilib. Baş vermiş xırda talama faktlarının 87,7%-i açılıb.

Qanunsuz dövriyyədən 4 ton 663 kiloqram, yəni ötən ilin eyni dövrü ilə müqayisədə 582 kiloqram çox narkotik vasitə çıxarılıb.

Yol-nəqliyyat hadisələrinin sayı 126 fakt, qəzalarda ölənlərin sayı 13 nəfər, xəsarət alanların sayı isə 157 nəfər azalıb.

"Formula-1 Azərbaycan Qran Pri"si, III MDB Oyunları, həmçinin respublika və beynəlxalq əhəmiyyətli digər kütləvi tədbirlərdə asayiş və təhlükəsizlik etibarlı və peşəkarlıqla qorunub.

Diqqətə çatdırıb ki, daxili işlər orqanlarında xidmətin müasir tələblər səviyyəsində təşkili, əməkdaşların peşəkarlığının artırılması, təcrübəli və yüksək ixtisaslı kadr korpusunun formalaşdırılması, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması üzrə zəruri tədbirlər davam etdirilib, gənclərin xidmətə qəbulunun təşviqi və təbliği məqsədilə ali və orta ümumtəhsil müəssisələrində mütəmadi görüşlər keçirilib.

Gündəlikdəki məsələlər barədə nazirliyin aidiyyəti baş idarələrinin rəisləri həyata keçirilmiş tədbirlər, əldə edilmiş nəticələr, yol verilmiş nöqsanların aradan qaldırılması üzrə görülmüş işlər barədə məruzə edib, eyni zamanda məruzəətrafı çıxışlar dinlənilib.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, fəaliyyətin effektivliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən edib.

Əsas vəzifələrdən birinin vətəndaş məmnunluğunun təmin edilməsi və bu mühüm məsələdə polisin hər zaman insanların güvən yeri olduğunu xatırladaraq ərazi orqanlarının rəislərindən vətəndaşların müraciətlərinə bundan sonra da həssaslıqla yanaşılmasını, bütün araşdırmaların keyfiyyətlə aparılaraq qaldırılan məsələlərin qanuni və operativ həlli üçün səylərin gücləndirilməsini və tapşırılmış sahəyə məsuliyyətin daha da artırılmasını tələb edib.

*Davamı 2-ci səhifədə*

2_Layout 1 29.10.2025 17:56 Page 1



# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

*Əvvəli 1-ci səhifədə*

Antinarkotik təbliğatın gənclər arasında, təhsil müəssisələrində, mediada və sosial şəbəkələrdə gücləndirilməsinin vacibliyi, xüsusən cinayətkar qruplaşmaların yeni metodlardan - internet informasiya resurslarından istifadə etməklə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə fəaliyyətin səmərəsinin yüksəldilməsi barədə konkret tapşırıqlar müəyyən edib.

Cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin məsuliyyətə cəlb olunması işinin gücləndirilməsinin vacibliyi də diqqətə çatdıraraq bu sahədə təbliğat işinin effektivliyinin artırılmasının, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanıb ictimaiyyətə çatdırılmasının zəruriliyini nəzərə çatdırıb.



İlin başa çatmasına az müddət qaldığını diqqətə çatdıran general-polkovnik Vilayət Eyvazov əldə edilmiş müsbət nəticələrin davam etdirilməsini, arxayınçılığa yol verilməməsini, şəxsi heyətin peşəkarlığının artırılması, icra intizamının daha da yüksəldilməsi, yeni informasiya texnologiyalarının geniş şəkildə tətbiqi üçün bütün qüvvə və imkanların səfərbər olunmasını, əməliyyat işinin səmərəsinin yüksəldilməsini tələb edib, bu istiqamətdə konkret tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

# HƏRBİ İNSTİTUTDA NATİQLİK VƏ SƏLİS DANIŞIQ SEMİNARI KEÇİRİLİB

Hərbi peşədə liderlik və düzgün ünsiyyət bacarıqları, xüsusilə də diksiya və natiqlik qabiliyyəti zabitin peşəkarlığını tamamlayan mühüm amillərdir. Bu bacarıqlar həm əmr verərkən, həm də şəxsi heyət və ictimaiyyətlə effektiv əlaqə qurmaqda mühüm rol oynayır. Düzgün nitq və təsirli danışıq bacarıqları xüsusilə komandir heyəti üçün liderlik keyfiyyətlərinin ayrılmaz hissəsidir. Natiqlik qabiliyyəti komandirin öz fikirlərini aydın və inandırıcı şəkildə ifadə etməsinə, tabeliyində olan şəxsləri ruhlandırmasına və effektiv idarəetmə mühitinin yaradılmasına imkan verir.

Oktyabrın 8-də Hərbi İnstitutda diksiya və natiqlik üzrə mütəxəssis Cəlalə Nəzəroğlunun keçirdiyi seminar məhz nitq mədəniyyətinin komandirlik və liderlikdəki əhəmiyyətini ön plana çıxarıb.

Cəlalə xanım öz çıxışında düzgün nitqin əhəmiyyətindən və onun insan həyatında necə böyük dəyişikliklər yarada biləcəyindən danışıb. O vurğulayıb ki, düzgün danışıq yalnız ünsiyyət vasitəsi deyil, həm də insanın xarakterini, özünə



inamını və cəmiyyətdəki yerini müəyyən edən əsas amillərdən biridir. Onun "Danışığınla həyatı qazan" adlı kitabından səsləndirdiyi məqamlar da auditoriyada böyük maraqla qarşılanıb. O, nitq problemlərinin həlli üçün sadə və effektiv üsulları izah edib, bu məqsədlə gündəlik məşqlərin vacibliyini vurğulayıb.

Auditoriyada interaktiv sual-cavab sessiyası keçirilib. Kursantlar, professor-müəllim və komandir heyəti Cəlalə xanıma müxtəlif mövzularda suallar ünvanlayıb. Xüsusilə komandir heyətinin nitqin liderlik bacarıqlarının inkişafındakı əhəmiyyəti ilə bağlı verdiyi suallar müzakirənin mərkəzində yer alıb. Mütəxəssisin bu mövzuda təcrübəsi və dərin bilikləri auditoriyanı maarifləndirib.

Cəlalə xanım sonda seminar iştirakçılarına mövzu üzrə öz tövsiyələrini bildirib. Bu cür seminarlar şəxsi inkişaf və peşəkar bacarıqların təkmilləşdirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

**Hərbi-elmi şöbənin rəisi**
**polkovnik Vüqar Şirinov**

# ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, oktyabr ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" müvafiq əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahının təşkilat və komplektləşdirmə şöbəsinin baş zabiti mayor Elvin Qasımov seçim qrupunun rəhbəri təyin edilib.

Çağırışçıların xidmətə qəbulu, onların yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması barədə məlumat verən mayor E.Qasımov bildirib ki, hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşləri, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Bütün məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Daha sonra çağırışçılar növbə ilə həkim-endokrinoloq, baş ordinator-rentgenoloq, ordinator-ümumi cərrah tərəfindən müayinə olunublar, bədən baxışı və sonda flüoroqrafik müayinə keçirilib. Bununla yanaşı, onlar əşya əmlak-









ları, eləcə də ölçülərinə uyğun geyimlərlə təmin olunublar.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu onlara məsləhətlər verib.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, sıralarımıza xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**Mətbuat xidməti**

# HƏRBİ HİSSƏ TƏYİNATI ÜZRƏ VƏZİFƏLƏRİ UĞURLA İCRA EDİR

Respublikamızın ərazi bütövlüyü uğrunda qızğın döyüşlərin getdiyi bir vaxtda yaradılan Daxili Qoşunların 25032 saylı hərbi hissəsi təqdirəlayiq yol keçib. Bu hərbi hissənin yerləşdiyi hərbi şəhərcik 1992-ci il mayın 31-də Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının istifadəsinə verilib. Bundan sonra 1992-ci ilin iyun ayının 12-dən etibarən hərbi hissə fəaliyyətə başlayıb.

1992-1994-cü illərdə hərbi hissənin şəxsi heyəti ərazi bütövlüyümüz uğrunda döyüşlərdə iştirak edib. 1999-cu ildə hərbi hissəyə tədris təyinatlı vəzifələr həvalə olunub.

Artıq 33 ildir ki, fəaliyyət göstərən hərbi hissə Daxili İşlər Nazirliyinin rəhbərliyinin diqqət və qayğısı sayəsində əsaslı şəkildə yenilənib,





maddi-texniki təchizatı yaxşılaşıb.

Sözügedən hərbi hissədə xidməti ezamiyyətdə olduğum zaman bunun bir daha şahidi oldum. 33 illik zəngin xidmət təcrübəsinə malik olan bu hərbi hissənin tarixinə, bugünkü həyatına nəzər salmaq bizim üçün həqiqi mənada maraqlı oldu.

Fəaliyyəti müddətində zəngin təcrübə toplayan hərbi hissədə tədrisin yüksək səviyyədə təşkil olunması üçün hər bir şərait yaradılıb. Burada nəzərəçarpan səliqə-sahman, aparılan abadlıq və yenidənqurma işləri məhz şəxsi heyətə göstərilən qayğının təzahürüdür. Bu da öz növbəsində hərbi qulluqçuları qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirməyə ruhlandırır.

Hərbi hissə komandiri polkovnik Rəşadət Süleymanovla söhbət zamanı məlum oldu ki, tədris təyinatlı hərbi hissədə kiçik komandirlər və mütəxəssislər (rabitəçi və aşpazlar) hazırlanaraq qoşunların hərbi hissələrinə göndərilirlər. Kurslar 3 ay olmaqla ildə 4 dəfə keçirilir. Hər bir kursun sonunda qəbul olunan imtahanları müvəffəqiyyətlə başa vuran hərbi qulluqçulara müvafiq şəhadətnamələr təqdim edilir.

Polkovnik R.Süleymanov bildirdi ki, hərbi hissədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən bölmələrdən biri kiçik komandirlər hazırlayan tədris bölüyüdür. Burada manqa komandirinin vəzifələrinin öyrədilməsi ilə yanaşı, kiçik komandirlərin metodiki ustalığının, təşkilatçılıq və idarəetmə qabiliyyətlərinin artırılmasına da ciddi fikir verilir.

Məşğələlərin keyfiyyətli təşkili və keçirilməsində kiçik komandirlər hazırlayan tədris bölüyünün komandir heyətinin fəaliyyəti danılmazdır. Tədris taqımının komandiri leytenant Niftəli Şıxəliyev kiçik komandirlərin hazırlanması kursunun müvafiq proqramın tələblərinə uyğun təşkil edildiyini diqqətə çatdırdı. Bildirdi ki, hərbi qulluqçular tədris proqramı üzrə biliklərə yiyələndikdən sonra təcrübə keçmək üçün hərbi hissələrə ezam olunaraq, manqa komandiri kimi fəaliyyət göstərirlər. Təyin olunmuş müddət bitdikdən sonra hərbi hissəyə qayıdırlar və Daxili Qoşunların Baş İdarəsi tərəfindən təşkil olunmuş imtahan komissiyası əldə etdikləri bilikləri hansı dərəcədə mənimsədiklərini yoxlamaq məqsədilə onlardan imtahanlar qəbul edir. İmtahanları "əla" və "yaxşı" qiymətlərlə başa vuranlar "kiçik çavuş" hərbi rütbəsi verilməklə aidiyyəti üzrə vəzifələrə təyin olunurlar.

Hərbi hissənin üzərinə düşən vəzifələri bacarıqla yerinə yetirən digər bölməsi isə sürücü və kiçik mütəxəssis hazırlayan tədris bölüyüdür. Bölük komandiri - baş müəllim baş leytenant Mürsəl İslamzadənin sözlərinə görə, rabitə üzrə mütəxəssis hazırlayan taqımın şəxsi heyətinə qoşunların təchizatında olan rabitə və yüksək texnoloji vasitələrin, ultraqısa dalğalı, eyni zamanda qısadalğalı radiostansiyaların taktiki-texniki xüsusiyyətləri izah edilir, işə salınması, istismarı, eləcə də radiomübadilənin aparılması qaydaları öyrədilir. Rabitəçilərlə gündəlik olaraq həm nəzəri, həm də praktiki məşğələlər keçirilir: "Rabitəçi mütəxəssislərin hazırlanması daxili iş-



lər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq əmrinin tələblərinə əsasən təşkil edilir. Şəxsi heyətin ixtisas hazırlığı üzrə əsas təlim forması cihazlarda, fəaliyyətdə olan rabitə kanallarında praktiki məşğələlərdir. Məşğələlər zamanı radiostansiyalardan, sabit rabitə qovşaqlarından, orada olan texnikadan və başqa maddi-təlim bazalarından istifadə olunur. Rabitə vasitələrində işləmək üçün təlim ilk dəfə sinifdə və fəaliyyətdə olan cihazlarda, sonra səhra rabitə qovşaqlarında keçirilir. Hər bir məşğələnin sonunda öyrədilən materialın mənimsənilməsi araşdırılır və qiymətləndirilir".

Bölüyün şəxsi heyətinin təlim-tərbiyəsi, mənəvi-psixoloji durumunun yüksəldilməsi istiqamətində əlindən gələni əsirgəməyən bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Umud Rzayevin fəaliyyəti bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

Kiçik mütəxəssislərdən aşpazlarla məşğələlər ilk iki ayda nəzəri olaraq keçirilir. Sonuncu üçüncü ayda isə yeməkxanada yeməkxana rəisinin rəhbərliyi ilə onlarla praktiki məşğələlər təşkil olunur, müxtəlif təamlar hazırlanır.

Aşpaz hazırlayan tədris taqımının komandiri-müəllimi leytenant Asim Süleymanov bildirdi ki, aşpazlara ərzaq payı normaları, yeməklərin bişirilməsi, səhra şəraitində hazırlanması, texnoloji avadanlıqlardan düzgün istifadə edilməsi öyrədilir, o cümlədən gigiyena qaydalarına ciddi riayət olunması üsulları aşılanır.

Bölüyün nümunəvi hərbi qulluqçularından leytenant Ümid Şahverdiyev, çavuşlar Cəlal Nağıyev və Əlikram İbrahimov verilən tapşırıqların icrasına məsuliyyət hissilə yanaşıblar.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 29.10.2025 18:32 Page 1



# TƏLİMLƏRDƏ FƏRQLƏNƏN MİNAATAN BATAREYA



Məlumdur ki, Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, 12565 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı və intizamı ilə seçilir. Peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Keyfiyyətlə keçirilən məşğələlərin nəticəsidir ki, batareya qarşıya qoyulan vacib, eyni zamanda məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malikdir. Bu işdə minaatan batareyanın komandiri kapitan Kənan Yəhyayevin zəhməti danılmazdır.

Minaatan batareyanın vəzifələri barədə danışan kapitan K.Yəhyayev bildirdi ki, əsas tapşırıqlar döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləmək üçün xüsusi təyinatlı bölmələri atəş dəstəyilə təmin etməkdən ibarətdir.





Batareya komandiri söylədi ki, qarşıya qoyulan döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi hər bir hərbi qulluqçudan böyük məsuliyyət tələb edir. Zabitimiz şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına komandir heyətinin xüsusi diqqət yetirdiyini dedi: "Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində "batareya hücumda" və "batareya müdafiədə" mövzularında təlimlər keçirilir, həmçinin minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən təhlükəsizlik qaydaları öyrədilir".

Kapitan K.Yəhyayev funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan baş leytenant Sahil Novruzov, leytenant Azər Aslanov, baş çavuşlar Ruslan İbrahimov, Zahir Vəliyev, Sahil Əliyev, çavuşlar Şahin Osmanov, Tahir Hüseynov, kiçik çavuşlar Namiq Nəcəfov, Baba İsgəndərli, Amin Tağıyev, əsgərlər Ərcan Mehtiyev, Ələkbər Əliyev, Sultan Məmmədov, Hilal Nəsirov, Çoban Şirinov, Elcan Əliyev, Ayxan Əliyev, Məhəmməd Mustafazadə, İlkin Kazımovun adlarını çəkərək əlavə etdi ki, batareya yüksək döyüş hazırlığına malikdir və istənilən zaman qarşısına qoyulan tapşırıqların icrasına hazırdır.

**mayor Anar Əhmədov**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİK OLAN DƏSTƏ





17072 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır, regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyətin cəlb olunduğu xüsusi əməliyyatlarda qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.

Bölmənin döyüş təlimi, ictimai-siyasi hazırlığı, daxili qayda-qanuna riayət edilməsi, texnikanın, silah-sursatların və əmlakların vəziyyətinə, eləcə də şəxsi heyət tərəfindən döyüş tapşırıqlarının müvəffəqiyyətlə icra olunmasına cavabdehlik daşıyan dəstə komandiri mayor Pərviz Məmmədov qarşıya qoyulan tapşırıqların vaxtında və dəqiq yerinə yetirildiyini söylədi. Bildirdi ki, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq və ixtisas hazırlığından məşğələlər keçirilir. Bu zaman hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına, məşğələ mövzularının dərindən mənimsənilməsinə diqqət yetirilir.

O, keçirilən təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin bir məqsədə - döyüş hazırlığının hər zaman yüksək səviyyədə qorunub saxlanılmasına xidmət etdiyini bildirdi: "Dəstənin öz vəzifələrini keyfiyyətlə yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Bu, dəstənin döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlamaq, qarşıya qoyulan tapşırıqları məsuliyyətlə və vaxtında icra etməkdir".

Mayor P.Məmmədov onu da qeyd etdi ki, təlimlər zamanı bölmə komandirləri tərəfindən şəxsi heyətin bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır: "Tapşırıqların müvəffəqiyyətlə icra olunması hərbi qulluqçuların bilik və bacarıqlarından çox asılıdır. Əldə olunan müsbət nəticələr təbii ki, yüksək nailiyyətlərin qazanılmasına zəmin yaradır".

Dəstədə keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan dəstə komandiri şəxsi heyətlə yüksək intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi. O, bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Emin Quliyevin əməyini xüsusilə qeyd etdi. Bildirdi ki, kapitan E.Quliyev hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının yüksəldilməsi istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Mayor P.Məmmədov hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə, qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**kapitan Xədicə Hacızadə**

*Qazilərimiz*

# HƏRBİ XİDMƏTDƏ PEŞƏKARLIQ VƏ DÖYÜŞDƏ MƏRDLİK ÖRNƏYİ

44 günlük Vətən müharibəsi dövlətimizin və xalqımızın qalibiyyət salnaməsi kimi tarixə yazılıb. Döyüş meydanında böyük rəşadət və fədakarlıqla hərbi zəfər qazanılaraq ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Kapitulyasiya aktını imzalayan işğalçı Ermənistan öz məğlubiyyətini etiraf etməyə, bu gerçəkliklə barışmağa məcbur qalıb. Həmişə xarici havadarlarına arxalanan ermənilər bu cür rəzil duruma düşəcəklərini heç vaxt ağıllarına belə gətirməyiblər. Şovinizm ideologiyasına əsaslanan sərsəm ideyaları və xülyaları onları süquta uğradıb.

Mənfur düşməni "dəmir yumruq" zərbəsi ilə darmadağın edərək qələbəni arzudan reallığa çevirən, öz canları və qanları bahasına xalqımızın ləyaqətini ucaldan igid oğullarımız həyatın ən taleyüklü imtahanından şərəflə keçiblər. Belə oğullardan biri də Vətən müharibəsi qazisi, istefada olan baş çavuş Qafarov Əzim Rafiq oğludur. Qazi ilə Bakının Buzovna qəsəbəsində yerləşən Səhiyyə Nazirliyinin Reabilitasiya Mərkəzində görüşərək söhbət etdim. Xeyli vaxtdır ki, orada növbəti reabilitasiya kursu keçən Əzim həyatının müxtəlif məqamları, həmçinin xidmət və döyüş yolundan danışdı.

O, 1986-cı il oktyabrın 9-da Bakı şəhərində doğulub. Rafiq Qafarov və Xalidə Qafarovanın iki oğul övladından biridir. Atası paytaxtın Maştağa qəsəbəsində uzun illər poçtalyon işləyib, sakinlərin ünvanlarına məktub, teleqram, qəzet və jurnallar çatdırıb. Qəsəbə əhalisi arasında hörmət qazanıb. Rafiq kişi və Xalidə xanım övladlarını halal zəhmətlə böyüdərək onlara vətənpərvər, xeyirxah və ədəb-ərkanlı olmağı aşılayıblar. Qeyd edim ki, Əzimin babası Məhəmməd kişi Bakının ayrı-ayrı məhəllələri və ətraf qəsəbələrində qırçı kimi çalışıb, öz işində bacardığı qədər insanlardan köməyini əsirgəməyib. Sovet dövründə çəkilmiş "Şərikli çörək" bədii filmindəki qırçı roluna aid epizodlar məzmunca onun həyatının ekran təzahürüdür.

Əzim Maştağadakı 255 saylı tam orta məktəbin məzunudur. Şagird ikən fiziki tərbiyə və çağırışaqədərki hazırlıq fənlərinə daha çox maraq göstərib. 12 yaşından idmanla davamlı məşğul olub, qaydasız döyüş növü üzrə güc və bacarığını sınayıb, ölkədaxili yarışlara qatılıb. Məşqçiləri tərəfindən məharətli idmançı kimi xarakterizə olunub.

2004-cü ilin oktyabr ayında Əzim müddətli həqiqi hərbi xidmətə çağırılıb. Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində hərbi and içib. Çevik hərəkət bölüyündə xidmət keçib. Vətən qarşısında əsgər borcunu vicdanla yerinə yetirib. 2006-cı ilin aprel ayında hərbi xidmətdən tərxis edilib.



Sonra o, bir müddət əlbəyaxa döyüş idman növləri üzrə məşqçi kimi fəaliyyət göstərib. Yeniyetmələrin zərərli vərdişlərdən uzaq durmaları üçün onları idmana həvəsləndirib.

2010-cu ilin avqust ayında Əzim öz arzusu ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 99713 saylı hərbi hissədə patrul bölüyünün patrul taqımı komandirinin müavini, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun atıcısı və atıcı-istehkamçısı, 16075 saylı hərbi hissədə isə xüsusi təyinatlı dəstənin snayper yarımqrupunun, habelə atəş təminatı qrupunun 12,7 mm iriçaplı pulemyot yarımqrupunun komandiri, xüsusi həmlə qrupunun atıcı-qumbaraatanı vəzifələrində əzmkarlıqla xidmət edib. Təyin olunduğu vəzifələrdə komandanlığın etimadını doğruldub. Qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlib. Xidmət dövründə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Silahdaşları ona həmişə hörmətlə yanaşıblar. Döyüş və mənəvi-psixoloji hazırlığında müsbət cəhətdən fərqlənən Əzim inspeksiya yoxlamaları zamanı yüksək qiymətlər alıb.

Qusar rayonu və Bakının Nardaran qəsəbəsinin ərazilərində keçirilmiş xüsusi əməliyyatlarda iştirak edib. Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, eləcə də digər mötəbər idman tədbirləri zamanı ictimai qaydanın və təhlükəsizliyin qorunması üzrə xidmətə çıxıb. Pandemiya dövründə karantin rejiminin təmin edilməsi ilə bağlı xidmətdə olub.

Daxili işlər nazirinin 26 iyun 2019-cu il tarixli müvafiq əmri ilə o, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalına layiq görülüb.

Vətən müharibəsindən əvvəl Əzim xüsusi təyinatlı bölmələrin taktiki təlimlərində iştirak edərək təqdirəlayiq praktiki hazırlıq nümayiş etdirib.

Müəyyən xidmət təcrübəsinə və peşəkarlığa malik xüsusi təyinatlı kimi Əzim özünü daim döyüş sınağına hazırlayıb. Torpaqlarımızın yağı tapdağından azad olunmasına töhfə verməyi arzulayıb.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi dövründə 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyəti də ön cəbhənin od-alovundan keçib. Dəstənin 4 nəfər hərbi qulluqçusu Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin Cəlilabad rayonundakı "N" saylı hərbi hissəsində formalaşdırılan qruplardan birinin tərkibində düşmənə qarşı vuruşub. Həmin hərbçilərin arasında olan Əzim müharibənin ilk günündə silahdaşları ilə Murovdağ istiqamətinə göndərilib. Orada mürəkkəb relyefin və işğalçıların möhkəmləndirilmiş istehkamlarının olmasına baxmayaraq, hücuma keçən döyüşçülərimiz təcavüzkar erməni ordusunun postlarına sarsıdıcı zərbələr vurublar. Bəzi mövqelər ələ keçirilib. Avtomat və qumbaraatan silahları təhkim olunan Əzim cəsurluğu sayəsində yağıya qan uddurub.

Bir neçə gün ərzində gərgin döyüşlərdən sonra tərkibində olduğu qrup Murovdağ ərazisindən çıxarılaraq ön cəbhənin Füzuli-Cəbrayıl istiqamətinə aparılıb. Bu istiqamətdə də erməni ordusunun müdafiə xətti yarılıb, döyüşlər hər iki rayonun ərazisinin dərinliklərinə doğru genişlənib. Əzim ruh yüksəkliyi ilə hücuma atılıb, işğalçıların bir sıra atəş nöqtələrini susdurub.



Oktyabrın 3-də Cəbrayıl rayonu ərazisində döyüş zamanı o, odlu silah güllələrindən ağır yaralanıb. Xüsusi təyinatlıya ilk tibbi yardım göstərilərək arxa cəbhəyə təxliyyə edilib. Ayrı-ayrı xəstəxana və qospitallara köçürülüb, üzərində cərrahiyyə əməliyyatları aparılıb, bir neçə müalicə kursu keçib. Sağlamlığının bərpası üçün qardaş Türkiyə Respublikasına da göndərilib. Təəssüf ki, dəlib keçən və kor güllə yaraları onun bədənində ağır fəsadlar törədib, aşağı ətrafları hərəkətsiz vəziyyətə düşüb.

2021-ci ilin may ayında Əzim səhhəti ilə əlaqədar sülh və müharibə dövrlərində hərbi xidmətə yararsız sayılaraq Daxili Qoşunların sıralarından istefaya buraxılıb. Hərbi qulluqçuya 1-ci əlillik dərəcəsi verilib və pensiya təyin olunub.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli, Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamları, daxili işlər nazirinin 3 noyabr 2020-ci il tarixli əmri ilə baş çavuş Ə.Qafarov "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Vətən müharibəsi iştirakçısı" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Dövlətimiz qaziyə qayğı göstərərək onu 3 otaqlı mənzil və avtomobil ilə təmin edib. Heydər Əliyev Fondu tərəfindən isə fərdi əlil arabası verilib.

16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun istehkamçı-radiotelefonçusu baş çavuş Emin Cəfərov, avtomobil yarımqrupunun sürücüsü çavuş Ceyhun Qafarov Əzimlə birlikdə xidmət ediblər və döyüş yolu keçiblər. Onların sözlərinə görə, o, xidmət dövründə hərbçi şərəfini uca tutub, öz peşəsinə rəğbət bəsləyib, dəstənin istifadə etdiyi silah-sursat, texnikaya aid və taktiki fəaliyyət üzrə biliklərə həvəslə yiyələnib, intizamlı, yoldaşlıqda etibarlı olub. Dəstəyə yeni gələn hərbi qulluqçulara bildiklərini öyrədib, heç bir silahdaşına qayğısını əsirgəməyib. Emin və Ceyhun bildirdilər ki, Əzim ön cəbhədə mərd, ürəkli, fədakar, verilən döyüş tapşırığını nəyin bahasına olursa-olsun, yerinə yetirməyə can atan xüsusi təyinatlı kimi hərbi anda sadiq qalıb. Ağır yaralandığı döyüş yerindən təxliyyə edilərkən yolda avtomobilin yaxınlığında düşmən mərmisi partlayıb. Həmin məqamda yenidən ölüm təhlükəsi ilə üzləşib.

Silahdaşları ilə birgə müharibənin sonunadək vuruşmaq Əzimə qismət olmasa da, o, qazilik məqamına yüksələn qalib döyüşçüdür. Müharibədə sağlamlığını itirməsi ilə barışmaq onun üçün mənəvi-psixoloji cəhətdən nə qədər çətin olsa da, ruhdan düşməyib, bu sınaqdan da keçəcəyinə ümidini qoruyub saxlayıb.

Nurcahan və Elcan adlı məktəbli övladları var. Ataları ilə fəxr edirlər. Gələcəyimiz olan onların və yaşıdlarının qələbə qazanan qürurlu ölkədə böyümələri qazi üçün tükənməz fərəh hissidir. Vətənə sədaqəti, mənəvi dəyərlərimizə bağlılığı, valideynlərinə ehtiramı və övladlarına sevgisi ona həyatda yaşamağa güc verən vacib amillərdir.

**Yalçın Abbasov**

4_Layout 1 29.10.2025 18:35 Page 1



# HƏRBİ İNSTİTUTDA ELMİ SEMİNAR KEÇİRİLİB

Daxili Qoşunların Hərbi İnstitutunda tanınmış yazıçı, filosof və psixoloq Rövşən Abdullaoğlunun iştirakı ilə elmi seminar təşkil olunub. Tədbirdə professor-müəllim heyəti, zabitlər və kursantlar geniş tərkibdə iştirak ediblər.

Seminarın mövzusu "Vətənpərvərlik və zabit etikası: milli-mənəvi dəyərlərin zabit şəxsiyyətinin formalaşmasında rolu" olub. Hərbi-elmi şöbənin rəisi polkovnik Vüqar Şirinov çıxış edərək seminarın məqsədini açıqlayıb və aktuallığını vurğulayıb, milli-mənəvi dəyərlərin gənclərin tərbiyəsində, zabit şəxsiyyətinin formalaşmasında əvəzsiz rol oynadığını qeyd edib.



Daha sonra söz Rövşən Abdullaoğluna verilib. Yazıçı vətənpərvərlik hissinin gənclərin mənəvi dünyasında güclü dayağa çevrilməsi, zabit etikası, peşəkar məsuliyyətin şəxsiyyətin inkişafında oynadığı rolu barədə dərin fəlsəfi və psixoloji mülahizələrini bölüşüb. O, kursantlara şəxsi inkişaf, mənəvi güc, stres və çətinliklər qarşısında psixoloji dayanıqlılığın qorunması ilə bağlı praktik tövsiyələrini çatdırıb.

Seminar sual-cavab sessiyası ilə davam edib. İştirakçılar məruzəçiyə yaradıcılıq, həyat fəlsəfəsi, motivasiya və oxu mədəniyyəti barədə müxtəlif suallar ünvanlayıblar. Auditoriyada səmimi mühit yaranıb, kursantların fəallığı maraqla qarşılanıb.

Daxili Qoşunların Hərbi İnstitutunda son illər yalnız zabit hazırlığına deyil, həm də elmi-ədəbi və mədəni mühitin inkişafına xüsusi diqqət yetirilir. Mütəmadi keçirilən seminar, konfrans və görüşlər kursantların dünyagörüşlərinin genişləndirilməsinə, milli-mənəvi dəyərlərə bağlılıqlarının gücləndirilməsinə, peşə hazırlıqlarının təkmilləşdirilməsinə xidmət edir. Bu baxımdan R.Abdullaoğlu kimi tanınmış ziyalıların çıxışları şəxsi heyətdə vətənpərvərlik ruhunun möhkəmlənməsinə əhəmiyyətli təsir göstərir.

Tədbirin sonunda qonağa hədiyyə təqdim olunub, xatirə şəkli çəkdirilib.

**Hərbi-elmi şöbənin rəisi**
**polkovnik Vüqar Şirinov**

# HEYDƏR ƏLİYEV MƏRKƏZİNƏ EKSKURSİYA TƏŞKİL OLUNUB




Hərbi qulluqçuların mənəvi tərbiyəsi, ictimai-siyasi biliklərinin artırılması, dövlətçilik təfəkkürünün formalaşdırılması baxımından tarixi məkanlara, mədəniyyət abidələrinə, muzeylərə və sərgi mərkəzlərinə ekskursiyaları maarifləndirici rol oynayır. Daxili Qoşunların hərbi hissələrində belə tədbirlər davamlı olaraq keçirilir.

25032 saylı hərbi hissənin qərargahının fiziki hazırlıq və idman rəisi mayor Kamran Əliyevin rəhbərliyi ilə bir qrup şəxsi heyətin Şirvan şəhərindəki Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub.

Bələdçi Səkinə Qayıbova tərəfindən ilk olaraq hərbi qulluqçulara Ulu Öndərin həyat və fəaliyyətinin, zəngin dövlətçilik irsinin öyrənilməsi məqsədilə yaradılan Heydər Əliyev Mərkəzinin açılışının 2010-cu il aprelin 1-nə təsadüf etdiyi barədə məlumat verilib. Qeyd edilib ki, mərkəz Azərbaycan xalqının



Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsini geniş təbliğ edən, həyatı və fəaliyyəti ilə bağlı materialları toplayan, qoruyan, elmi cəhətdən öyrənilməsini təşkil edən mədəniyyət müəssisəsi, həm də elmi-tədqiqat qurumudur. Burada onun fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər, fəxri fərmanlar, diplomlar, orden və medallar, o cümlədən mükəmməl yazılmış kitablar nümayiş olunur.

Hərbi qulluqçularımız ekskursiyadan zəngin təəssüratlarla qayıdıblar.

**kapitan Nigar Ağayeva**

# YÜKSƏK STANDARTLARA CAVAB VERƏN ƏSGƏR YEMƏKXANASI

25032 saylı hərbi hissənin komandanlığının xüsusi diqqət yetirdiyi sahələrdən biri şəxsi heyətin keyfiyyətli və kalorili qidalanmasıdır. Əsgər yeməkxanasında bişirilən xörəklərin keyfiyyəti, sözün əsl mənasında, müvafiq tələblərə tam cavab verir. Orada olarkən yeməkxanadakı səliqə-sahman və gigiyenik qaydaların gözlənilməsi diqqətimi cəlb etdi. Sözsüz ki, hərbi qulluqçuların belə təmiz şəraitdə qidalanmaları onlara göstərilən diqqət və qayğının təzahürüdür.



Bu sahədə görülən işlərdə böyük zəhməti olan hərbi hissənin ərzaq xidmətinin rəisi kapitan Faiq Məcidov şəxsi heyətin qida rasionundan danışarkən bildirdi ki, əsasən milli mətbəximizin ləziz xörəklərinə üstünlük verilir. O, qidalanmanın daxili işlər nazirinin müvafiq əmrinin tələbləri əsasında təşkil olunduğunu söylədi. Bununla yanaşı, gündəlik olaraq vitamin, mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir.

Onun sözlərinə görə, qidaların lazımi qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının qarşıya qoyduğu vacib tələblərdəndir. Yeməklərin müvafiq normalara uyğun hazırlanmasında təminat manqasının komandiri-baş aşpaz çavuş Bayram Quliyevin zəhməti danılmazdır. O, üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşır, aşpazlara hər cür köməklik göstərir.

Hərbi hissədə aidiyyəti kurs keçmiş əsgər aşpazlarla bərabər, aşpaz işçilərin əməyindən də istifadə olunur. Belə ki, Röya Məhərrəmova, Kəmalə Əliyeva, Məlahət Heydərova, Gülbəniz Məmmədova və Səbinə Məmmədovanın vəzifələrinin öhdəsindən layiqincə gəldikləri, qidaları tələb olunan keyfiyyətdə hazırladıqları diqqətə çatdırıldı.

**kapitan Nigar Ağayeva**

*Həkim məsləhəti*

# ÇUĞUNDUR QARACİYƏRİN VƏ BEYİNİN FƏALİYYƏTİNİ YAXŞILAŞDIRIR

Çuğunduru orta miqdarda hər gün yemək olar. Bu tərəvəzin tərkibi xeyli sayda antioksidantla, eləcə də sağlamlıq üçün vacib olan kalsium, fosfor, kalium, dəmir, sink kimi minerallar, B1, B2, B6 və C vitaminləri ilə zəngindir.

AZƏRTAC "MedikForum"a istinadla xəbər verir ki, bundan başqa, çuğundur orqanizmin sağlamlığını möhkəmləndirən bir çox xassəyə malikdir.

Yüksək qan təzyiqi zamanı kömək edir. Çuğundur antioksidant təsirinə malik flavonoidlə - betaninlə zəngindir. Betanin ürək-damar sistemini dəstəkləyir və kardioloji xəstəliklərin qarşısını ala bilir. Çuğundur



şirəsindən istifadə arterial təzyiqi aşağı salır.

Beyinin fəaliyyətini yaxşılaşdırır. Çuğundur nitrat maddələri ilə zəngindir və bu maddələr orqanizmdə azot oksidinə çevrilir. Azot oksidinin təsiri altında qan damarları, o cümlədən baş beyindəki qan damarları "yumşalır" və genişlənir, bu da oksigen və bəsləyici maddələrin nəqlinin yaxşılaşmasını təmin edir. Nəticədə diqqətin cəmləşməsi artır, beyinin digər funksiyaları yaxşılaşır.

Qaraciyərin funksiyasını yaxşılaşdırır. Çuğundurun tərkibindəki betanin həm yüksək qan təzyiqi zamanı kömək edir, həm də qaraciyərə yaxşı təsir göstərir. Məsələn, onun təsiri nəticəsində qaraciyərdə piyin toplanması azalır, fəaliyyəti aktivləşir, xolesterinin səviyyəsi aşağı düşür.

Həzm prosesini stimullaşdırır. Əksər tərəvəzlər kimi, çuğundurun da tərkibində lifli maddələr var və bu maddələr həzm prosesinin faydalı aktivatorlarıdır. Rasiona çuğundurun daxil edilməsi qəbizliyin qarşısını alır və babasilin yaranma riskini aşağı salır.

**AZƏRTAC**

*NÜMUNƏVİ XİDMƏT*

# BACARIQLI VƏ NÜMUNƏVİ MANQA KOMANDİRİ

12565 saylı hərbi hissənin intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan kiçik çavuş Elgün Hüseynov əməliyyat bölüyündə xidmət edir. Tabor komandiri mayor Arzuman Tağıyev tərəfindən müsbət xarakterizə olunan manqa komandiri qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.



Kiçik çavuş E.Hüseynov 2004-cü ilin dekabr ayının 4-də Mingəçevir şəhərində anadan olub. 2011-2022-ci illərdə Mingəçevir şəhərində yerləşən 4 saylı tam orta məktəbdə oxuyub. 2022-ci ildə Bakı Dövlət Peşə Təhsili Mərkəzinin "Elektrik avadanlıqlarının quraşdırılması" ixtisasına qəbul olunsa da, təhsilini tamamlamayıb. On yaşından idmanın kikboksinq növü ilə məşğul olub. 2019-cu ildə bu idman növü üzrə yeniyetmələr arasında keçirilən respublika çempionatında yüksək nəticə göstərərək 1-ci yerə layiq görülüb.

2025-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədən sonra xidmətini 12565 saylı hərbi hissədə davam etdirir. 2025-ci ilin avqust ayında hərbi hissədə təşkil olunan kiçik komandirlər kursunu müvəffəqiyyətlə bitirərək "kiçik çavuş" hərbi rütbəsi verilməklə manqa komandiri vəzifəsinə təyin edilib.

Kiçik çavuş E.Hüseynov daim üzərində çalışır, özünə və tabeliyində olan əsgərlərə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Şəxsi heyət arasında yoldaşlıq münasibətlərinin möhkəmləndirilməsinə töhfə verməsi onun müsbət xüsusiyyətlərindəndir. Xidmət müddətində bölüyün komandir heyəti və hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

**12565 saylı hərbi hissənin**
**ştatdankənar müxbir postu**

# MƏSULİYYƏTLİ RADİOTELEFONÇU

16076 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Xəyal Məmmədovdur. O, 2025-ci ilin yanvar ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin fevral ayında 25032 saylı hərbi hissədə kiçik mütəxəssis hazırlayan bölmədə rabitəçi ixtisasına yiyələnərək xidmətini davam etdirmək üçün 16076 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin edilib.



Əsgər X.Məmmədov 2006-cı il dekabrın 4-də İsmayıllı rayonunun Ruşan kəndində anadan olub. 2013-2024-cü illərdə doğma kəndində yerləşən tam orta məktəbdə təhsil alıb.

Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissələrlə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Əsgər X.Məmmədov xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**kapitan Şahin Cəfərzadə**

# VƏZİFƏLƏRİNİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLƏN BAŞ SÜRÜCÜ

Daxili Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində, avtomobil və zirehli texnikanın idarə edilməsində, şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında daşınmasında peşəkar sürücülərin rolu böyükdür. Öz vəzifələrinin öhdəsindən layiqincə gələn, nizam-intizamlı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından biri də baş əsgər Pərvin Şükürlüdür.



O, 1993-cü ilin mart ayının 25-də Biləsuvar rayonunun Amankənd kəndində doğulub. 1999-2010-cu illərdə doğulduğu kənddə yerləşən şəhid Eyvaz Kərimov adına tam orta məktəbdə təhsil alıb. 2011-2012-ci illərdə Müdafiə Nazirliyinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki işlərdə çalışıb. 2016-cı ilin may ayında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 17074 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun atıcısı, 2017-ci ilin avqust ayından isə baş sürücü (TOMA) vəzifələrinə təyin olunub.

Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən baş sürücü həm hissə komandanlığının etimadını, həm də yoldaşlarının hörmətini qazanıb. Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri mayor Seymur Mehralıyev tərəfindən müsbət xarakterizə olunur. Tapşırıqları vaxtında və düzgün icra etdiyinə, funksional vəzifələrinə məsuliyyətlə yanaşdığına görə hərbi hissə və bölmə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

**kapitan Xədicə Hacızadə**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası ehtiyatda olan polkovnik-leytenant Fuad Həbibova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı MAXE baş əsgər Şəhriyar Şahmərdanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000